**RAMİL ƏLİYEV**
**AMEA Folklor İnstitutu**

# OXŞAR DƏYƏRLƏRİN GEN QAYNAĞI – GENEOLOJİ NƏZƏRİYYƏ

«Oxşar dəyərlərin gen qaynağı – genealoji nəzəriyyə» çox vacib bir problemə həsr olunmuşdur. Dünyanın bütün xalqları, insanlar öz genləri ilə hansısa uzaq keçmişlərdə bir-birilərin qohum olmuşlar. Bu gün insanların içində bu əlaqələr qırılmış, müxtəlif gen dəyişiklikləri əmələ gəlmişdir. Bir kökdən, bir hüceyrədən, bir embriondan və s. əmələ gələn ən qədim insanların genində, qanında indi nə qədər daşıyıcılar vardır. Təbii iqlim şəraitindən asılı olaraq insanların kök rüşeymində Şərq istiqanlılığı, Qərb soyuqqanlılığı vardır. İndi dünya xalqları daha yaxın olmaq istəyir. Lakin eyni kökdən olan xalqların müasir tarixi dövrdə, qloballaşma dövründə həmin kökə qayıtması çətin prosesdir. Xalqların qədim kökə qayıtmasına mane olan səbəblər də vardır. Birincisi, xalqlar mənəvi-milli basqıya məruz qalırlar, ikincisi, milli ambisiyalar cəhətdən eyni kökdən olan xalqlar dünyagörüşlərinə görə indi çox fərqlənirlər. Üçüncü, ərazinin yaxın və uzaq olması kökə qayıtmağa mane ola bilir. Buna baxmayaraq qədim kökə qayıtmaq zəruri prosesdir. Hər şeydən əvvəl qohum və yaxın xalqların əhalisi öz daxilində milli birliklərini qorumalıdır. Həmin xalqlar müəyyən mənada öz ərazi birliyini qorumalı, dilini qorumalıdır. Çünki bu şərtlərə əməl etmədən qardaş xalqların öz aralarında birlik yaratmaq, kökə qayıtmaq mümkün olmaz. Bu gün türk xalqlarının mədəniyyətlərini yaxınlaşdırmaq, ortaq dil birliyi məsələsi də gündəmdədir. Onu da nəzərə almaq lazımdır ki, bütün bunların yolu folklordan keçir. Qədim kökə qayıtma əski folklor ənənələrinin həmin xalqlarda eynilə və ya qismən dəyişikliyə uğraması şəklində qorunması yolu ilə öz izahını tapır. A.Nəbiyev mədəniyyətlərarası oxşarlıqların səbəbini ibtidai insanların düşüncələrinin, daxili sisteminin eyni kökdən olmasında görür. Xüsusilə Şərq xalqlarının, qədim şumer, babil, hind, çin, ərəb və farsların yaratdıqları

mifoloji sistemlərin bir kökdən qaynaqlanması prosesi Qərbin bu mədəni dəyərlərdən qidalanması və mədəniyyətlərarası əlaqələrdə həmişə öndə olmuşdur. Bunun əsas səbəbini Şərq xalqlarının folklorunda yaşayan adət-ənənələrin, süjetlərin, hətta motivlərin də eyni kökdən olmasında aramaq lazımdır. Prof. A.Nəbiyev burada tarixi qohumluq əlaqələrini, mədəni-tarixi iqtibası da əsas səbəblərdən biri sayır. Həqiqətən, bəşəriyyətin ilkin çağlarında elə bir dövr olmuşdur ki, ilk insanın yaşadığı yer ancaq Şərq olmuşdur. Bunu 12 min il əvvəl mövcud olmuş Mu qitəsi haqqındakı elmə məlum olan faktlar da sübut edir. Ceyms Cercvardın «Günəş imperiyası» kitabında ilk insanın yaşadığı məskən Birma ilə Hindistan arasındakı torpaqlar hesab olunur. Həmin qitə, orada yaşayan 64 milyon insan ilə birgə zəlzələ nəticəsində Sakit okeanın dibinə çökmüşdür. Bu Hindistan kahininin Ceyms Cercvarda söylədiyi, gil kitabələrdəki yazılar da sübut edir. Bu haqda Valmikinin «Ramayana»sında da qeyd olunur.

Bəşəriyyət tarixində ilk insanın yarandığı dövrü və yeri təyin etmək çətindir. Amma danılmaz faktdır ki, ilk insanın vətəni yenə də Şərqdir. İlk Şərq insanının yaratdıqları abidələrdəki («Mahabharata», «Ramayana», onlardan əvvəlki abidələrdə də) süjet və motivləri Azərbaycan folklorundakı motiv və süjetlərlə müqayisə edəndə bu fikrin doğruluğuna əmin olmaq olar. Bu oxşarlıqlar təsadüfi deyil. Tarixin ən qədim dövrlərindəki katastrofik hadisələr insanları müxtəlif ərazilərə yayılmağa məcbur etmişdir. Biz bunu qədim inklərin şifahi yaradıcılıq nümunələrinin əsasında da görə bilərik. Onların şeir ilə olan yaradıcılıqlarını asan başa düşmək olar. Bütün bunlar uzaq sivilizasiyalarda yaşamış insanların bədii düşüncəsinin də yaxın olmasını göstərir. A.Nəbiyev doğru olaraq hətta Amerikada yaşayan qdim sakinlərin uzaq sivilizasiyadan bəri məskunlaşdığını qeyd edir. Tarixdən, dini ədəbiyyatdan məlumdur ki, ilk insan Adəm 7000 il bundan əvvəl dünyaya gəlmişdir. Müəyyən faktları tutuşduranda Adəmin ilk insan olmasına şübhə etmək olar. Riyazi hesablamalara görə ən qədim insanların 30 min il və daha çox bundan əvvəl yaşadığını düşünmək olar. Bu barədə Quranda da indiki insanlara xitabən deyilir ki, sizdən əvvəlki insanlara namazı

vacib buyurduq. Bu «vacib buyurulma» faktını, hətta qədim oğuzların («Kitabi-Dədə Qorqud»dan əvvəlki oğuzların da) namaz qıldıqlarını bilmiş olsaq, ilk insanlığın tarixi çox min illər bundan əvvələ düşür. A.Nəbiyev çox vacib bir faktı – Avropa alimlərinin əsərlərinə əsaslanaraq Bibliyanın Allah tərəfindən nazil edildiyini qeyd edir və bu faktın özünü genealoji cəhətdən ilk insanların yaxın olması kimi qəbul edir. Belə ki, bütün keçmiş dövrlərdə dinlər insanları birləşdirmək üçün göndərilmiş və bütün yer üzərindəki insanlar eyni dinə xidmət etmişlər. İslam dini də bu məqsədlə bütün insanlara göndərilmişdir.

Tarix boyu ilk insanın vətəni hara olmuşdur? Sualı alimləri düşündürmüşdür. Bu sualın ətrafında prof. A.Nəbiyev də ciddi düşünərək Avropa alimlərinin əsərlərini saf-çürük edir. Mədəni dəyərlərin araşdırıcıları olan A.B.Şleqel, L.İ.Arnim, İ.Q.Çerder, J.J.Russo və başqalarının fikirlərinə söykənərək hind və Avropa xalqlarının tarixi əlaqələrindəki oxşarlıqları gen bağlılığı faktı kimi götürür. A.Nəbiyev tarixi bağlılıqlardan əvvəl türk və hindu qədim qəbilələrinin gen oxşarlıqlarının daha qədim bağlantı olduğunu irəli sürür və bunun səbəbi kimi əhali yerdəyişmələrini misal gətirir. Professorun irəli sürdüyü genealoji nəzəriyyənin əsasını mənəvi birlik, dil birliyi, mədəni dəyərlərin eyni, yaxud yaxın olması – mənşə birliyi təşkil edir. O, mənşə, gen birliyi məsələsində T.Benfeyin görüşlərini təqdir edir. T.Benfey öz axtarışlarının nəticəsi olaraq Hindistanı bəşər sivilizasiyasının ən qədim məskəni, ən qədim folklor yaradıcılığının isə Hindistandan qaynaqlandığını yazır. Hind ədəbiyyatını, hind mifologiyasını dərindən bilən azərbaycanlı alimlər də Azərbaycan folkloru ilə hind folklorunun arasındakı süjet oxşarlıqlarının, motiv göstəricilərinin yaxın olduğunu görə biləcəklər. Təkcə fakt kimi onu qeyd edək ki, hind-benqal şairi Mukundoram Çokrobortinin «Çondi» poemasındakı rəqslə bağlı motiv Azərbaycan mifoloji rəvayətlərindəki cinlərin yığnağında rəqsetmə motivinə oxşardır. Hər iki motivdə rəqs edən bu vasitə ilə ölümə qalib gəlir. Benqal müəllifinin əsərində Bexula baş allah İndranın məkanına gedərək ilahə Monoş tərəfindən öldürülmüş əri Lokxindoru həyata qaytarır. «Yusiflə Sənubər» nağılında da Sənubər toy gecəsi ilahə tərəfindən oğurlanan əri Yusifi xilas etmək üçün

oğlu ilə birlikdə ilahə bacıların məskəninə gedib çıxır. Hər iki motivdə ilahələr sevən qadınlara ərlərini qaytarırlar. Bu hind otivi Azərbaycan nağıllarına, rəvayətlərinə də təsir edə bilmişdir. Lakin bu təsiretmə mifoloji mətnlərimizin müstəqilliyini kölgə altına almır. Bunu T.Benfeydən onrakı illərdə fəaliyyət göstərmiş tədqiqatçıların gəldikləri nəticələr də göstərir. Prof. A.Nəbiyevin qeyd etdiyi kimi, A.N.Veselovski də xalq yaradıcılığının hansısa mərkəzə bağlı olmasının müxtəlif yerlərdə yaranan folklor nümunələrinə ciddi təsir etmədiyini, süjet və motivlərin yerlərdə dəyişərək yeni məzmun və şəkil almasını təsdiq edir. Biz bunu eyni iki mifoloji motivin üzrində müşahidə etdik. Bu oxşarlıq onların genealoji əsaslarının birliyinə gətirib çıxarır. Ancaq hansının daha qədim olduğunu tarixin ulu yaddaşında qalmasını sübut etmək çətindir. Türk öz tarixini yazmağı heç vaxt unutmadığı kimi, həm də onu qorumamışdır. A.Nəbiyevin genealoji nəzəriyyəsinə istinad edərək qədim türk xalqları arasındakı səyyar süjetlərin və motivlərin mənşəyini türkün milli-mifoloji dünyagörüşündə axtarmağı, onların sonradan yayılma coğrafiyasını təyin etmək vəzifəsini yerinə yetirmək vacib məsələ olmalıdır. Bunun üçün Şərq mifologiyalarını dərindən bilmək tələb olunur. Avropa xalqlarının, slavyan xalqlarının mifologiyalarını da bilmək lazımdır. Azsaylı xalqların mifoloji-dini görüşlərini nəzərdən keçirmək də əsas şərtdir. Çünki azsaylı xalqlar qapalı mühitdə yaşadıqlarından öz folklorlarını daha ciddi qoruyurlar, həm də invariant və arxaik mətnlər onların şifahi yaradıcılıqlarında özünü yaşatmaqdadır. Həm də onlar köhnə, ən qədim sivilizasiyanı qorumağı bacarırlar. Həm də azsaylı xalqlar qədim etnos olaraq folklor və etnologiya məsələlərində epos düşüncəsini yaratmağa meyllidirlər. Bu prosesin necə baş verməsini E.Taylor vəhşi qəbilələrin məişətində müşahidə etmişdi. E.Taylor təsdiq edirdi ki, klassik sivilizasiya folklorun və etnologiyanın birgə öyrənilməsi zamanı daha çox aydınlaşır. O, burada eyniyyət, oxşarlıq prinsipini əsas tutmuşdur.

Türk mifoloji düşüncəsinin oxşarlıq yaratma və tipolojiliyə meyllilik funksiyaları Şərq və Qərb dəyərlərində açıq-aydın görünür. Xüsusilə Azərbaycan əfsanələrinin hətta mifoloji düşüncəyə təsiri mətn oxşarlıqlarında da nəzərə çarpır. Biz bu

oxşarlıqların tiologiyasını süjet, mətn və obraz tipologiası üzrə olduğunu müşahidə etmişik. Əlimizdə dəqiq faktların (oxşar mətnlərin) olması dünya sivilizasiyasının türk geninə borclu olmasını söyləməyə əsas verir. Bunu ən qədim vaxtlarda hunların Avropaya yayılması, orada milli etnoslara qaynayıb qarışması, bəzi Avropa dillərində qədim türk sözlərinin arxaik şəkillərinin qalması və s. bunu təsdiq edir. Azad müəllimin təbirincə desək, bu cür faktlar dünya xalqlarının şifahi yaradıcılığında özünü göstərən oxşar süjetlərin genezisi və tipologiyası ilə bağlı yeni fərziyyələr irəli sürmək ehtimalını hələ də gündəmdə saxlayır. Burada «ehtimal» sözünü «təsdiq» sözü ilə əvəz etmək daha doğru olar. Son zamanlardakı tədqiqatlarda daha dəqiq faktlar irəli sürülür. Tur Heyerdalın nəzəri fikirlərində də Azərbaycanın qədim sivilizasiyanın vətəni olması, Odinin türk mənşəli olması faktını xatırlamaq yerinə düşər.

A.Nəbiyein yeni genealoji nəzəriyyəsində bütün bu faktlar onların tarixən mövcud mənşə birliyi, gen eyniliyi ilə izah olunur. Bu gen eyniliyi nə zaman yarana bilər? Bilirik ki, qədim türklərdə başqa xalqları assimilyasiya etmək xüsusiyyəti çox güclü olmuşdur. Assimilyasiya o zaman təsirli ola bilər ki, assimilyasiya olunan xalqla qohumluq əlaqəsi, ərazicə yaxınlıq olsun. Assimilyasiyanın əsas şərti kütləvilikdir, xalqın sayca üstünlük təşkil etməsidir. Assimilyasiya yüzllərlə davam edən prosesdir. Biz bunu bütün slavyan mənşəli xalqlarda müşahidə etmişik. Deməli, assimilyasiyanın digər bir şərti yaxın və ya uzaq qohumluq əlaqəsidir. Yaxın qohumluq əlaqələri ərazicə bir-birinə yaxın olan xalqlarda, uzaq qohumluq isə hansısa fizioloji gen kodlarını saxlamamış, milli düşüncədə bir-birindən ayrılan xalqlarda olmuşdur.

A.Nəbiyev genealoji nəzəriyyənin tarixinə də diqqət yetirir. Xüsusilə N.Y.Marr tərəfindən xalqların, dillərin yaxınlığı və qohumluğu məsələsində irəli sürdüyü müddəaları yüksək qiymətləndirir. Müəllifin genealoji nəzəriyyəsində dünyanı dərketmə üsulunda genlərin ötürücülük qabiliyyətinə malik olması – yaranma, hissələrə ayrılma, yenidən birləşmə və təkrar bölünmədən mənfi və müsbət gen hüceyrələrinin parçalanması, özünü yenidən bərpa etmək funksiyasına malik olması əsas götürülür.

Biz bura riyazi gen hüceyrələrinin fəaliyyətini də əlavə etmək istərdik. Ola bilir ki, Azərbaycanın hansısa şəhərində əhalinin genində riyazi genlər üstünlük təşkil edir. Yaxud hansısa nəsilin şəcərəsində ancaq riyaziyyatçılar yetişir. Bu vaxta qədər riyazi gen problemi öyrənilməmiş qalmışdır. Folklor mətnlərindəki riyazi miflərin də kökü xalqın düşüncəsində riyazi genin yaşamasındadır.

Bütün bunlardan sonra A.Nəbiyev öz nəzəriyyəsinin əsas müddəasını irəli sürür. Dünya xalqları öz inkişaf tarixlərində iki pillədən keçir. Birinci pillədə dünya xalqları və dilləri bir xalqdan, bir dildən yaranıb inkişaf edir. İkinci pillədə folklorda, etnoqrafiyada, antropologiyada, psixologiyada ayrılan xalqlar öz erkən kökünə qayıdır. Bu prosesi təsdiq edəcək hansı inkişaf qanunauyğunluqları vardır? Bu proses dialektik inkişafda müəmmalı görünür. Dünyanın sonu qədər bu proses baş verəcəkmi? Qiyamətdən sonra yaranacaq dünyada hər şey sıfırdan başlanır. Əgər qohum olan xalqların milli ambisiyaları olmasa, onların arasında genə qayıtma əsas rol oynamalıdır. Milli şovinizm də bu işdə ən böyük əngəldir. Dini fərqlərin qalması insanlar arasında azadfikirliliyə mane olan səbəbdir. Demək, bu prosesin baş tutmasına zaman məhdudiyyəti və psixoloji əngəllər mane ola bilər. Amma bununla belə, bu nəzəriyyə insanların xoşbəxt gələcəyinə bir çağırışdır. Vavilon qülləsi haqqındakı Şərq əfsanəsində deyilir ki, yer üzündə bir dildə danışan insanlar çox ürüyüb-artmışdılar. Onlar bir-biriləri ilə çox mehriban idilər. Onlar Vavilon qülləsini tikə-tikə Allaha yaxınlaşırdılar. Allah insanların göyə doğru ucaldıqlarını görüb onlara müxtəlif dillər verdi. Bundan sonra insanlar bir-birilərini anlamadılar və Allah ilə onlar arasında məsafə yarandı.

Genə qayıtmanı iki anlamda başa düşmək olar: Sözün həqiqi mənasında kökə qayıtma və xalqların ictimai ideyalarının bir-birinə qovuşması nəticəsində «kökə qayıtma». Birinci halda kökə qayıtmada, yuxarıda deyildiyi kimi, xalqların mənafeləri toqquşur. İkinci halda hər cür dövlət, xalq marağı kölgədə qalır, üstünlük ideyalara verilir. Məsələn, son zamanların Avropa dövlətlərinin irəli sürdüyü mehriban qonşuluq siyasəti xalqları yaxınlaşdıran ideya siyasətidir. Bu da dolayı yolla «genə qayıt-

ma»dır. Əgər bütün ictimai maraqlar nəzərə alınarsa, xalqlar arasında sülh, mehriban qonşuluq təmin olunmuş olar. Bu siyasət Avropa dövlətlərinin öz aralarında uğurla tətbiq olunur. Avropa İttifaqı adlanan qurumda sərhədlərin olmaması, xalqların bir-biri ilə başa düşəcək bir dildə (esperanto, yaxud ingilis dilində) anlaşması onlar üçün genə qayıtmağı təmin edir. Deməli, kökə qayıtma mərhələli ola bilər. Birinci mərhələdə ərazicə qonşu, dilcə yaxın olan qohum xalqlar öz aralarında btün mənafeləri kənara qoyub əvvəl iqtisadi, sonra mənəvi baxımdan (sənət, ədəbiyyat, incəsənət və s.) birləşirlər. İkinci mərhələdə yenə dünya xalqlarını birləşməyə gətirib çıxaran ümumi maraqlar və cəhətlər tapılır, iri iqtisadi layihələr ətrafında birləşmək təmin olunur, dünya sərvətləri bərabər bölünür. Nə qədər utopik görünsə də, ikinci mərhələdə Azərbaycanın rolu böyük görünür. Maqnitin ətrafında olan cisimlər ona birləşməyə can atdığı kimi, Azərbaycan da iri bir maqnit kimi öz möhtəşəm layihələri ilə dünya ölkələrini özünə çəkir. Azərbaycanın iri neft layihələri, ipək yolunun üzərində tranzit ölkə olması, bütün yeraltı və yerüstü sərvətləri, onların ağılla idarə olunması, Xəzər kimi dənizin sahilində yerləşməsi və s. bu işdə böyük rol oynayır. Dünyanı birləşdirən iri neft və qaz kəmərləri Azərbaycana dünya xalqları ilə yaxınlaşmağa çox kömək edir. Burada əsas amil ortaq məxrəclərin tapılmasıdır. Həm dildə, həm siyasətdə, həm mənəviyyatda, həm də iqtisadiyyatda ortaq məxrəclər dünya xalqlarını birləşdirən ictimai model ola bilər. Bütün görüləcək işlər kökə qayıtmağı tam təmin etməsə də, bu məsələdə başlıca rol onaya bilər.

Prof. A.Nəbiyev V.Manqardtın fikirlərinə söykək olaraq yazır ki, «Bu qaynağı tapmaq, ortaqlığın mahiyyətini açıqlamaq üçün mifologiyaların tarixini yenidən araşdırmaq vacibdir. Oxşarlıqların, bənzər mədəni dəyərlərin bu ilkin qaynaqdan baş alıb gəlməsini ortaya çıxarmaq oxşar dəyərlərin meydana çıxma şəraitini açıqlamaqda çox mühüm məsələ olardı...». Təqribən 100 ildən sonra biz V.Manqardtın bu fikrini xalqları birləşdirəcək qüvvəni təkcə mifologiyada yox, hazırkı şəraitdə dünya iqtisadiyyatında gedən inteqrasiyada da görə bilərik. A.Nəbiyev xalqların fəaliyyət sferasının «etnosun sivilizasiyaya doğru inki-

şaf səviyyəsi, coğrafi region şəraiti, təbiət atributlarını, etnik mənsubiyyəti, insan tipinə dair müxtəlifliyi, yaşadığı qəbilə, tayfa və cəmiyyətin ictimai-sosial durumu və inkişaf səviyyəsi, onun məşğuliyyət sahələri» ilə bağlı olmasını göstərir.

Dünya xalqlarını birləşdirə biləcək ən əsas amil kimi əxlaq rol oynaya bilər. Əxlaqın pozulması mənəviyyatsızlığa gətirib çıxarır. Əgər bütün dünyada əxlaqa eyni dərəcədə riayət olunursa, o zaman insanlar da kökə qayıtmaq yolunda birləşə bilirlər. A.Nəbiyevin birinci sxemindəki birinci mərhələdən qopan ikinci və üçüncü mərhələlərdəki əlaqələrdə əxlaqi prinsiplər də fəaliyyətdədir. Əxlaqın gen ilə əlaqəsi danılmazdır. Gen düşüncəsindən doğulan əxlaq birinci mərhələdə lap çox, ikinci və üçüncü mərhələlərdə fəaliyyətdə, dördüncü və beşinci mərhələlərdə isə azalmağa doğrudur. Buna görə də Azad müəllimin verdiyi $G_d = H_1 + (H_2 + H_3) \times (H_4 + H_5)$ şərtiliyində əxlaqın yerini nəzərə çatdırmaq üçün belə bir riyazi tənlik təklif oluna bilər: $G_d = H_1 + (H_2 + H_3) \times (H_{-4} + H_{-5})$. Burada gen düşüncənin formalaşması onun I, II, III mərhələlərdəki əxlaqi dəyərinə qeyri-əxlaqi dəyərlərin (IV, V mərhələlərdəki) vurulmasından əvvəl onların öz aralarında cəmlənməsindən asılıdır. Bütünlükdə alınan müsbət əxlaqi dəyər gen düşüncənin saflaşmasına səbəb ola bilər.Bundan sonra A.Nəbiyev etnik düşüncənin formalaşdırdığı tarixi-poetik, etnopoetik, tarixi-genetik, etnopsixoloji və etnokulturoloji dəyərlər sistemindən danışır və onları birləşdirən gen yaddaşından söhbət edir. Gen yaddaşı saxlanc yeri kimi özündən arxetipləri, motivləri, süjet tiplərini ayıraraq yaddaş koduna, oradan şəcərənin təhkiyəsinə ötürür. Vahid folklorşünaslıq aləmində qəbul olunmuş gen yaddaşının bütün xalqlarda eyni olması, tapmaca, əfsanə, nağıl və s. süjetlərinin həmin genetik yaddaşdan hər xalqa məxsus şəkildə üzə çıxdığı da qəbul olunur. Burada ilahi mənşəli ilk insanın kosmogenetikası və zamanın fasiləsizliyi də nəzərə alınır. Burada zamanın fasiləsizliyi aydın görünsə də, sıçrayışlı zamanın qeyri-xətti inkişafı təhlil olunmalıdır. Yəni bütün xalqlarda folklorun genetik yaddaşdan eyni qaydada süzülməsi bir-birinə bərabər deyil. Biz kosmoqonik epos düşüncəsindən paralanmış müxtəlif arxaik modellərdən, arxetiplərdən motivlərin, miflərin, əfsanələrin, nağılların və

s. yaranmasını, onlardan yenidən epos yaranmasını, kosmoqonik epos kimi «Qaraoğlu» dastanından çoxlu motivlərin, miflərin parçalanmasını, müstəqil şəkildə yenidən eposyaratmada iştirakını, eposun içində ərimәsini, özündən yeni süjetlər əmələ gətirməsini nəzərdə tuturuq. Gen yaddaşı həm də etnosun epos yaddaşıdır. A.Nəbiyev gen yaddaşının fasiləsiz fəaliyyət funksiyasını gen yaddaşından ayrılan poetik ifadə sistemi ($D_1$), motiv, obraz və süjetləri ($F_1$), repertuar yaradıcılıq ənənəsi və mətnləri ($N_1$) aşağıdakı riyazi qaydada ifadə edir: $G_y = (D_1+F_1+N_1)$. A.Nəbiyevin qeyd etdiyi mədəni dəyərlərin inkişafının gen düşüncəsinə qayıtma və gen yaddaşına ötürülmə prosesinə təsiri, onun dinamikliyi atomun irəli-geri hərəkətinə oxşayır. Atomdan parçalanan hissəciklərdən biri yenidən atoma birləşir, parçalanma nəticəsində yeni hissəciklər aralanır, bu qayda ilə atomun inkişafında düzxətli olmayan qeyri-xətti düzülmələr baş verir. Folklor düşüncəsindəki ana kodlardan yaranan müxtəlif arxetip, motiv və süjetlərin epos düşüncəsində birləşməsi və yenidən ayrılaraq ana kökə qayıtması da həmin prosesi xatırladır.

Dördüncü sxemdə gen yaddaşının inkişaf fazaları ilə birinci sxemdəki gen düşüncəsinin inkişafında müəyyən fərqlər nəzərə çarpır. Birinci sxemdə gen düşüncəsi özündən bir fazanı ayırırsa, gen yaddaşı iki fazanı ayırır. Birinci sxemdəki faza özündən iki mərhələni ayırırsa, dördüncü sxemdə birinci və ikinci faza özündən üçüncü fazanı çıxarır. Rəqəmlərin kosmogenetikasına uyğun olaraq 3 rəqəmindən sonra 2 rəqəmi, 5 rəqəmindən sonra 4 rəqəmi yaranır. Birinci sxemdə də rəqəmlərin qeyri-xətti hərəkətinə uyğun olaraq 1 – 3 modeli üzrə mərhələlər qurulmuş, 2-dən 4, 3-dən 5-ci mərhələ formalaşmışdır. 4-cü sxemdəki gen yaddaşı düzxətli qaydada özündən mərhələləri ayırır. Prof. A.Nəbiyev 4-cü sxemdəki hərəkət fasiləsizliyində gen yaddaşının fasiləsiz transfer imkanını reallaşdıran mədəni dəyərlərin cəmləndiyini söyləyir. Azad müəllimin təqdimində gen düşüncəsi qlobal və regional düşüncəyə ayrılır və bunların hər biri də repertuar və motiv parçalanmalarına məruz qalır. Nəhayət, cilalanma və parçalanma nəticəsində qlobal düşüncənin hissələri öz aralarında birləşib gen birliyini yenə əmələ gətirmiş olur. O, bu prosesi riyazi olaraq $G_b = (G_{qlob} + G_{reg})$ şəklində ifadə edir. Onu

da qeyd edək ki, genealoji nəzəriyyəni riyazi üsulla irəli sürmək dünya folklorşünaslığında əlamətdar hadisədir və bu nəzəriyyənin aktuallığını, həm də tətbiq olunma imkanlarını artırır. Əgər keçmiş dövrlərdəki bu kimi nəzəriyyələr riyazi köklərdən uzaq və birtərəfliliyi ilə seçilirdisə, riyazi şəkildə təqdim olunan həmin genealoji nəzəriyyə elmlərarası əlaqənin bir nümunəsi kimi tətbiq olunma imkanları ilə də fərqlənir. Əlbəttə, kitabda hər şeyi riyaziləşdirmək də doğru nəticə verməz. Amma elmlərarası inteqrasiya da tələb edir ki, həlli vacib olan məsələlərdə riyazi modellərdən istifadə olunsun. Bu cəhətdən riyaziyyatçının başa düşəcyi, folklorçunun anlaya biləcəyi elementar riyaziyyat folklorun, mifologiyanın riyazi üsullarla öyrənilməsi işində mühüm rol oynayır. Təqdim olunan kitab da bu sahədə müəllifinə yeni şöhrət gətirəcəkdir.

«Oxşar dəyərlərin gen qaynağı – geneoloji nəzəriyyə» əsəri dünya elmində mühüm hadisə olduğu kimi, Azərbaycan elmində də bir sıra problemlərə yeni baxışı gündəmə gətirir.

## SUMMARY


### GENETIC SOURCE OF IDENTICAL VALUES – GENEALOGICAL THEORY

The article elucidates the main principles of the explanation of the genealogical theory by Azad Nabiyev. The author interprets the reason of intercultural similarities with origination of the primitive society's thoughts and its internal system from the same root.

**РЕЗЮМЕ**

ГЕНЕТИЧЕСКИЙ ИСТОЧНИК ИДЕНТИЧНЫХ ЦЕННОСТЕЙ – ГЕНЕАЛОГИЧЕСКАЯ ТЕОРИЯ

В статье описываются основные принципы объяснения генеалогической теории со стороны А. Набиева. Автор объясняет причину межкультурных схожестей их единым началом с взглядами первобытных людей и их внутренними системами.